## Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydalarının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Su Məcəlləsinin 63-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 dekabr 2000-ci il
№ 216

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 6 dekabr tarixli, 216 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə

### QAYDALARI[1]

1. Bu Qaydalar Azərbaycan Respublikasının Su Məcəlləsinə və "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli, 685 nömrəli Fərmanına əsasən hazırlanmışdır və su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə qaydalarını müəyyən edir.

2. Elektrik enerjisinin istehsal edilməsi məqsədilə su obyektlərindən hidroenerji ehtiyacları üçün istifadə sxemləri tərtib edilir. Bu sxemlər su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərinin tərkib hissəsi olaraq, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və "Azərenerji" Səhmdar Cəmiyyətinin sifarişi ilə müvafiq ixtisaslaşmış layihə institutu tərəfindən hazırlanır. [2]

3. Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə sxemləri ölkənin enerjiyə olan perspektiv tələbatını və bununla əlaqədar həyata keçirilməsi tələb olunan tədbirləri müəyyənləşdirmək, su ehtiyatlarının səmərəli istifadəsini və

mühafizəsini təmin etmək məqsədi ilə kənd təsərrüfatının və ölkə iqtisadiyyatının digər sahələrinin maraqlarını nəzərə almaqla tərtib edilir.

4. Su obyektlərinin hidroenergetika ehtiyacları üçün istifadə sxemlərinin işlənib razılaşdırılması, dövlət ekspertiza və təsdiq edilməsi "Azərenerji" Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə həyata keçirilir.[3]

5. Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə sxemlərində müəyyən edilmiş, birinci növbədə tikilməsi nəzərdə tutulan hidroenergetika obyektləri üçün müvafiq ixtisaslaşmış layihə institutu tərəfindən texniki-iqtisadi əsaslanmalar tərtib edilir və obyektin inşa olunacaq yeri müəyyənləşdirilir.

6. Böyük və mürəkkəb hidroenergetika obyektlərinin texniki-iqtisadi əsaslandırılmaları - Azərbaycan Respublikasının Nazirlər Kabineti, kiçik və mürəkkəb olmayan obyektlərin isə -Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılmaqla "Azərenerji" Səhmdar Cəmiyyəti tərəfindən təsdiq olunur.[4]

7. Təsdiq olunmuş texniki-iqtisadi əsaslanmaya görə inşa edilən hidroenergetika obyektlərinin layihə-smeta sənədləri müvafiq ixtisaslaşmış layihə institutu tərəfindən hazırlanır.

8. Hidroenergetika ehtiyacları üçün inşa edilən obyektlərin maliyyələşdirilməsi dövlət büdcəsi, xarici investisiyalar və digər maliyyə mənbələri hesabına həyata keçirilir.

9. Hidroenergetika ehtiyacları üçün tikilmiş su obyektlərindən istifadə zamanı onların hidroenergetika rejimi müəyyənləşdirilir və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırılır. Bu zaman qeyri-energetika sahələrinin (suvarma, balıqçılıq təsərrüfatı, su təchizatı, su nəqliyyatı) və təbii mühafizənin tələbləri təmin edilməlidir.

10. Hidroenergetika müəssisələri su obyektlərinin istifadəsinə, su anbarlarının doldurulması və istismar rejiminə dair müəyyən olunmuş qaydalar riayət etməli, gəmilərin və bərələrin maneəsiz və təhlükəsiz keçməsini, habelə balıqların kürütökmə yerlərinə buraxılmasını təmin etməlidirlər.

11. Hidroenergetika məqsədləri üçün istifadə olunan su obyektinin üzərində bir neçə elektrik stansiyası tikilərkən su axınının tənzimlənməsi elə aparılmalıdır ki, sudan istifadəçilərin tələbləri ödənilməklə, maksimum elektrik enerjisi istehsal etmək mümkün olsun.

12. Quraqlıq illərində hidroenergetika məqsədləri üçün istifadə olunan su anbarlarının iş rejimi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılır.[5]

13. Su elektrik stansiyalarının istismarı zamanı çirkləndirici maddələrin su obyektlərinə tullanmasına yol verilməməlidir.

14. Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə zamanı meydana çıxan torpaq, meşə, yerin təki, bitki və heyvanat aləminin, yeraltı suların mühafizəsinə dair məsələlər Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

15. Sərhəd su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları Azərbaycan Respublikasının Su Məcəlləsi və Dövlət sərhədi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və sazişlər ilə müəyyən edilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**)

**2.** 8 aprel 2006-cı il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**)

**3.** 10 may 2012-ci il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 481**)

**4.** 16 avqust 2013-cü il tarixli **214** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 3 sentyabr 2013-cü il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 1013)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 10 may 2012-ci il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 481)** ilə 4-cü, 6-cı və 9-cu hissələrdə “**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti**” sözlərindən əvvəl “**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və**” sözləri əlavə edilmişdir.

[2] 16 avqust 2013-cü il tarixli **214** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 3 sentyabr 2013-cü il, № 192, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 1013)** ilə "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları"nın 2-ci hissəyə "**Azərenerji" Səhmdar Cəmiyyətinin"** sözlərindən əvvəl "**Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və**" sözləri əlavə edilmişdir.

[3] 29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**) ilə "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları"nın 4-cü, 6-cı, 9-cu və 12-ci bəndlərində "Meliorasiya və Su Təsərrüfatı Komitəsi" sözləri "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2013-cü il tarixli **214** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 sentyabr 2013-cü il, № 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 1013)** ilə "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları"nın 4-cü, 6-cı, 9-cu və 12-ci hissələrə "**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi**" sözlərindən sonra "**, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi**" sözləri əlavə edilmişdir.

[4] 8 aprel 2006-cı il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**) ilə "Su obyektlərindən hidroenergetika ehtiyacları üçün istifadə Qaydaları"nın 4-cü, 6-cı, 9-cu və 12-ci bəndlərində "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi" sözləri "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilmışdir.

[5] 10 may 2012-ci il tarixli **107** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 13 may 2012-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 481)** ilə 12-ci hissədə "**rejimi**" sözündən sonra "**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi,**" sözləri əlavə edilmişdir.